# “GS1” təşkilatının Baş Assambleyası

“GS1” təşkilatının növbəti Baş Assambleyası 21-24 may 2007-ci il tarixində Koreya respublikasının paytaxtı Seul şəhərində keçirildi. Bu mötəbər iclasın işində “GS1” Cəmiyyətinin 68 milli təşkilatını təmsil edən 260 nümayəndə iştirak etdi. “GS1” Beynəlxalq assosiasiyası avtomatik identifikasiyanın beynəlxalq standartlarının hazırlanması və tətbiqi sahəsində aparıcı qlobal təşkilat olduğunu bir daha təsdiq etdi. İclasda Benin, Nigeriya, Pakistan və Tacikistanın 4 yeni Milli təşkilatı “GS1” assosiasiyanın tərkibinə qəbul edildi. Beləliklə, “GS1” təşkilatının mövcud olduğu ölkələrin sayı 108-ə çatdı.

“GS1” Təşkilatının Prezidenti M.Lopera Baş Assambleyanın açılışında ilin nəticələrinə yekun vurdu. Assambleyada 2007-2008-ci illərdə işlərin əsas istiqamətləri təyin edildi:

- ştrixli kodlaşdırma
- elektron kommersiya
- məlumatların qlobal sinxronlaşdırılması(GDSN)
- məhsulun elektron kodu (EPC)
- səhiyyə.

Qlobal məlumat bazaların sinxronlaşdırılmış şəbəkəsi Baş Assambleyada geniş müzakirə olunmuşdur. Hazırda həmin şəbəkədə 11000 şirkətin 1,5 mln məhsulları haqqında məlumat yerləşdirilib.

## GS1 Baş Assambleyasından photoqalereya



Seulda “Grand İntercontinental” mehmanxanası



Assambleyanın açılışı



İşçi rəyasət heyəti



“GS1” idarə heyətinin sədri D. Wegman



Bir qrup “GS1” milli təşkilatların nümayəndələri



Qərarın qəbulu



Müzakirə zamanı



İclas zalında



Seksiyanın iclası